UOT 94(479.24); UOT 727/479.243/ “94-99”

**NAZİM MƏMMƏDOV**
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*“Qarabağ müharibələri tarixi və Böyük qayıdış hərəkatı” şöbəsinin baş elmi işçisi,*
*tarix elmləri doktoru, dosent*
**mamedov-n@yahoo.com**

# AZƏRBAYCANIN SUQOVUŞAN QƏSƏBƏSİNİN İŞĞALDAN AZAD EDİLMƏSİ VƏ TARİXİ ƏHƏMİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/166-173

*Məqalədə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun – xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə 44 gün davam edən II Qarabağ müharibəsində qazanılan qələbədən, o cümlədən Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi və onun tarixi əhəmiyyətindən bəhs olunmuşdur.*

*Açar sözlər*: Azərbaycan, erməni vandalizmi, Ali Baş Komandan İlham Əliyev, Suqovuşan, Qarabağ, Türkiyə, tarixi əhəmiyyəti.

***Giriş.*** Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2021-ci il oktyabrın 3-də Suqovuşanın işğaldan azad edilməsi ilə əlaqədar qəsəbədə olmuş və dərin məzmunlu nitq söyləmişdir: “Bir il bundan əvvəl oktyabrın 3-də Suqovuşan qəsəbəsi işğaldan azad edilmişdir. Bu çox əlamətdar hadisə idi, müharibənin ilk günlərində strateji əhəmiyyətli qəsəbəni işğaldan azad etmək böyük uğurumuz idi, böyük qələbəmiz idi. Bu qəsəbənin işğaldan azad edilməsi zamanı şəhidlərimiz oldu, qazilərimiz oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin. Biz, keçən ayın 27-də [noyabrın 27-si nəzərdə tutulur – N.M.] “Anım Günü”nü keçirərkən vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin xatirəsini bır daha böyük hörmətlə yad etdik. Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi. Düşmən yəqin ki və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə – keçən il [2020-ci il nəzərdə tutulur – N.M.] oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bır neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi” [2].

***Suqovuşanın işğaldan azad edilməsi və əhəmiyyəti.*** Suqovuşanın azad edilməsinin əhəmiyyətini vurğulayan Ali Baş Komandan çıxışlarından birində demişdir ki, “İkinci Qarabağ müharibəsində mövqelərimizdən geri çəkildiyimiz bircə gün belə olmadı, hər gün cəsarətlə daha irəliyə gedirdik. Şanlı Vətən müharibəsinin yeddinci günü – 2020-ci il 3 oktyabr... Ötən günlər ərzində cəbhədən ancaq zəfər səsi eşidən, xoş müjdələr alan Azərbaycan xalqına Ali Baş Komandan İlham Əliyev daha bir qələbə xəbəri verir: Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!” [2].

Suqovuşanda döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyi üçün 1-ci ordu korpusunun bütün şəxsi heyətini təbrik edən Prezident İlham Əliyev həmin gün daha bir ədalətsizliyi aradan qaldıraraq Madagizin tarixi adını bərpa etdiyini açıqlayır: “Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır” [2].

Qeyd edək ki, Suqovuşan sovet dövründə – 1923-cü ildə Ağdərə rayonunun inzibati ərazisinə kənd kimi daxil edilmişdir, 1943-cü ildə isə şəhər tipli qəsəbə statusu almışdır. 1992-ci ildə Ağdərə rayonu ləğv edildiyindən onun ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülmüşdür. Həmin vaxt Suqovuşan da Tərtər rayonuna verilmişdir. Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Lakin sonradan, Ermənistan ordusunun “Eçmiədzin terrorçu dəstəsi” yenidən Suqovuşanı işğal etmişdir. Təcavüzkar siyasətlərinin

ömürlük olacağını düşünən işğalçılar 2014-cü ildə Suqovuşanda balıqartırma zavodu tikməklə ixracla bağlı da müəyyən planlar hazırlamışdılar [6, s.125]. Hətta ermənilər orada yetişdirilən balıq və istehsal edilən qara kürünü xarici ölkələrə ixrac etməyi qərarlaşdırmışdılar. Apardığımız araşdırmalardan məlum olur ki, Suqovuşanda yerləşən hərbi hissə Ermənistan ordusunun Qarabağdakı ən güclü, hazırlıqlı birləşmələrindən biri idi. Lakin 2020-ci il oktyabın 3-də rəşadətli Azərbaycan Ordusu Tərtərin Talış, Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq, Füzulinin Aşağı Əbdürrəhmanlı kəndləri ilə yanaşı, Suqovuşanı da erməni əsarətindən azad etdi [11, s.6]. Suqovuşan istiqamətində gedən döyüş əməliyyatlarında Azərbaycanın əsgər və zabitləri böyük şücaət göstərmişdilər. Düşmənin Suqovuşanda ağır məğlubiyyətə uğradılmasında, tutduğu mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilməsində polkovnik-leytenant Əfqan Abdurahmanov və tabeliyində olan bölmələr ciddi döyüş əməliyyatlarından keçmişdilər. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları o günlərdə bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilmişdilər. Düşmən isə Suqovuşanın itirilməsi ilə heç cür barışa bilməyərək bu önəmli yaşayış məntəqəsini geri almaq üçün bir neçə dəfə əks-hücuma keçmişdi. Lakin ordumuz həmin hücumların qarşısını almış və ermənilər çoxsaylı canlı qüvvə və texnika itirərək geri çəkilməli oldular. 2020-ci il oktyabrın 4-6-da Suqovuşan yaşayış məntəqəsi yaxınlığında yerləşən yüksəklikdə əlverişli mövqe tutan Əfqan Abdurahmanov buradan iki hərbi hissənin bölmələrinin "530", "951" yüksəklikləri və Gödəkburun dağı istiqamətində olan ərazilərin azad edilməsi əməliyyatını istiqamətləndirdi. Rabitədə Bayram İbişovun kod adı "Bayram-01", Əfqanınkı isə "Əfqan-36" idi, yuxarı qərargahla danışıqları onlar aparırdılar.

2020-ci il oktyabrın 4-də işğalçı qüvvələr dörd tank və bir ədəd iriçaplı silahdaşıyan zirehli texnikanın (BMP) köməyi ilə Ağdərə istiqamətindən Suqovuşan yaşayış məntəqəsinə doğru əks-hücum əməliyyatı həyata keçirməyə cəhd etdilər. Müdafiədə duran döyüş növbətçilərimiz bu cəh barədə dərhal Ə.Abdurahmanov və B.İbişova məlumat verdilər. Suqovuşan yüksəkliyindən düşmən döyüşçüləri və desant daşıyan zirehli texnikası məhv edildi. Suqovuşanın yaxınlığındakı "Teleqüllə" yüksəkliyində yerləşən mayor Mirdamət Bağıyevin dəstəsi də "SPAYK" ilə iki tankı məhv etdi və düşmən əks-həmləni kəsməyə məcbur oldu. Oktyabrın 5-də Vətən müharibəsinin ilk günündən döyüş əməliyyatlarında iştirak etmiş Qaçay Abdullayev Suqovuşan uğrunda döyüşlərdə yanına düşən minomyot mərmisinin partlaması nəticəsində yaralanmış və sağ ayağı dizdən aşağı amıputasiya edilmiş, sol qulağı da ciddi zədə almışdı. Kapitan Vüqar Əliyev o günləri xatırlayaraq deyir ki, "Qaçay adlı cəsur bir gizirimiz vardı, döyüş vaxtı yanına minaatan mərmisi düşdü, yaralandı. Gördüm ki, məni çağırır. Tez yanına qaçdım. Dedi: "Hər şey yaxşıdır, heç nəyə görə narahat olma". Halbuki onun ayağını mərmi üzüb qoparmışdı. Tez ona ağrıkəsici vurdum, ilkin tibbi yardım göstərib təxliyə etdik. "Məndən ötrü narahat olma, uşaqlar sizə əmanətdir" dedi. Yəni o cür yaralı vəziyyətdə belə heç kim ruhdan düşmürdü".

Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən, bir sıra uğurlu əməliyyatlarda şücaəti ilə əsgərlərinə nümunə olan, onları qətiyyətlə düşmən üzərinə hücuma ruhlandıran, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən bölük komandiri Elçin Ağayev də oktyabrın 6-da isə şəhid oldu. Oktyabrın 7-də artıq Azərbaycan bölmələri şərqdəki bütün yüksəklikləri işğaldan azad etmişdir.

Ümumiyyətlə, Talış-Suqovuşan əməliyyatında düşmənin 6-cı dağatıcı, 193-cü desant həmlə taboru, 022 xüsusi təyinatlı qüvvələrin iki taboru, 77-ci əlahiddə tank taboru məhv edildi, 7-ci və 5-ci dağatıcı alaylarına, 38-ci əlahiddə mexanikləşdirilmiş briqadaya ağır zərbələr endirildi. Düşmənin ümumilikdə 96 tankı məhv edildi, 13 tank və 161 avtomobil texnikası, 24 ədəd "D-30" topu ordumuz tərəfindən qənimət kimi götürüldü. Suqovuşanda silah-sursat anbarı da ordumuzun nəzarətinə keçdi. Bununla da, "yenilməz" deyilən xətlərin keçilməsi, erməni ordusunun məhv edilməsi, silah-sursatının ələ keçirilməsi, əsgərlərinin döyüşü tərk edib qaçması, ordusunun dağılması, tarazlığının pozulması baş verdi. Başlıcası isə işğalçı düşmənin döyüş əzmi və qərarlılığı məhvə düçar oldu. Bütün bunlar nəticə etibarı ilə erməni xalqının, dövlətinin psixoloji olaraq çökməsinə, sonlarının başlanğıcına səbəb oldu.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Suqovuşan əməliyyatına xüsusi diqqət yetirdiyi üçün müharibədən sonra bu əməliyyatda iştirak edən hərbi qulluqçuları da xüsusi

olaraq mükafatlandırmışdır. Ali Baş Komandan İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında sərəncamına uyğun olaraq, Suqovuşanın azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik nümunəsi göstərmiş 3500-dən çox hərbi qulluqçu yuxarıda adıgedən medalla təltif olunmuşdur. Daha sonra Dövlət başçısının 2021-ci il iyunun 24-də imzaladığı sərəncama əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 mindən çox hərbi qulluqçusu "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülmüşdür [6, s.13].

Azərbaycan silahlı birləşmələri tərəfindən Suqovuşanın işğaldan azad edilməsinin çox böyük əhəmiyyəti olmuşdur. Belə ki, Azərbaycanın Suqovuşan qəsəbəsi Ordumuz üçün çox strateji əhəmiyyətə malik ərazilərdən idi. Uğurlu Suqovuşan döyüşü Silahlı Qüvvələrimizin şimal istiqamətində irəliləməsi baxımından mühüm rol oynamışdır. Suqovuşanın azad edilməsi ilə Ağdərə və Ağdamı birləşdirən əsas təminat yolu Azərbaycanın nəzarətinə keçmiş, eyni zamanda düşmənin buradan Tərtər rayonuna zərbələr endirməsinin qarşısı alınmışdır. Çox gərgin keçən bu döyüşdə Ermənistan silahlı birləşmələrinin xeyli canlı qüvvə və texnikası məhv edilmişdi. Suqovuşanın işğaldan azad edilməsi Azərbaycana strateji baxımdan üstünlük verməklə yanaşı, hərbi əməliyyatların uğurla davam etdirilməsi üçün də əlverişli imkan yaratmışdır. Bu yaşayış məntəqəsinə nəzarət həmin istiqamətdə irəliləmək, başqa istiqamətlərə zərbə endirmək imkanlarını olduqca genişləndirirdi. Onu da qeyd etmək yerinə düşərdi ki, Suqovuşan həmin dağlıq bölgədə nəzarət altına alınan ilk yaşayış məntəqəsi olmaqla bərabər, qəsəbənin azad edilməsi Ağdərəyə gedən yola nəzarətin təmin edilməsi demək idi. Bu yaşayış məntəqəsinin azad edilməsi ilə Ağdərəyə gedən yol, demək olar ki, tam şəkildə Azərbaycan ordusunun nəzarətinə keçdi. Bütün bunlarla yanaşı, Suqovuşanın işğaldan azad edilməsi qarşı tərəfin hərbi imkanlarını məhdudlaşdırdı. Suqovuşan, o istiqamətdə olan erməni silahlı qüvvələrinin idarə məntəqəsi olduğundan həmin ərazinin işğaldan azad edilməsi düşməni çox çıxılmaz vəziyyətə saldı. Uğurlu Suqovuşan əməliyyatı düşmənin öz qüvvələrini oradan çıxararaq başqa yerə apara bilməsinə imkan vermədi. Ümumiyyətlə, Suqovuşandakı yüksəkliklər strateji baxımdan çox əhəmiyyətli olduğundan bu yaşayış məntəqəsinin azad edilməsi Azərbaycan Ordusuna ətrafdakı əraziləri nəzarətdə saxlamaq üçün zəmin yaratdı.

Apardığımız təhlillərdən məlum olur ki, Azərbaycan müharibədən əvvəl digər istiqamətlərlə yanaşı, Suqovuşan üzrə də irimiqyaslı təlimlər keçmiş, bu zaman döyüşlər üçün bütün hesablamalar dəqiqliklə aparılmışdı. Bu isə, müharibədə bütün istiqamətlər üzrə hərbi planları çox asanlıqla icra etməyə imkan vermişdir. Suqovuşan, işğalçının 4 əsas möhkəmləndirilmiş hərbi-strateji əhəmiyyətli dayaq məntəqələrindən biri idi. Hələ 2016-cı ilin aprel döyüşlərinin getdiyi əsas yerlərdən biri də məhz Suqovuşan olduğundan, son dörd ildə düşmən orada mövqelərini daha da möhkəmlətmişdi. Ermənistan onlara havadarlıq edənlərin mütəxəssislərini də cəlb etməklə Suqovuşandakı mühəndis-istehkam qurğularını daha da təkmilləşdirmiş, yeni vizual izləmə sistemi, radioelektron kəşfiyyat vasitələri, zenit raket kompleksi, başqa hərbi texnikalar yerləşdirməklə ərazinin, demək olar ki, alınmaz qalaya çevirmişdi. Onu da qeyd etmək yerinə düşərdi ki, vaxtilə Sərsəng su anbarı ilə Suqovuşanı da düşmən özü təkcə deyil, xarici desantçıların gücü ilə işğal etmişdi. Bu mənada Suqovuşanın azad edilməsi təkcə düşmənə deyil, ona havadarlıq edənlərə də ağır dərs oldu. Məhz Suqovuşanın azad edilməsi ilə Horadiz dəhlizinin açılması nəticəsində Azərbaycan Ordusunun hücumlarının qarşısının kəsilməsi artıq tam olaraq mümkünsüzləşdi. Suqovuşanın azad edilməsinin ən böyük hərbi-strateji əhəmiyyəti məhz bununla bağlı olmuşdu.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsində Suqovuşanın işğal edilməsi 1976-cı ildə istismara verilmiş eyniadlı su anbarının da ermənilərin əlinə keçməsinə səbəb olmuşdu. Bu isə, Azərbaycanın su təchizatı imkanlarının məhdudlaşdırılması ilə nəticələnmişdi. Tərtərçay və Turağaçay çaylarından daxil olan sular hesabına formalaşan, ümumi həcmi 5,86 milyon kubmetr olan su anbarından Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarının, ümumilikdə 96 min 217 hektar (ha) olan torpaq sahələrinin suvarma suyu ilə təmin olunması nəzərdə tutulmuşdur. Lakin işğal amili Tərtər rayonunun 24481 ha, Ağdərə rayonunun 14380 ha, Goranboy rayonunun 6938 ha, Yevlax rayonunun 5912 ha, Bərdə rayonunun 12620 ha, Ağdam rayonunun 29886 ha və Ağcabədi rayonunun 2000 ha torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaratmışdı [10, s.416]. Suqovuşan su anbarının uzun illər işğal altında olması səbəbindən bu sudan istifadə edənlər alternativ mənbə

kimi subartezian quyuları vasitəsilə tələbatlarını ödəmişdir. Azərbaycanın əkin sahələrinin Suqovuşan su anbarının suyu ilə suvarılmasına imkan verməyən Ermənistan üçün bu anbar həm də ekoloji terror silahı olmuşdur. Bunu Prezident İlham Əliyev 2021-ci ilin aprelində Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılovu qəbul edərkən də xatırladıb: "Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı və Suqovuşan su anbarı onların [Ermənistan silahlı birləşmələri nəzərdə tutulur – N.M.] nəzarətində idi. Bu iki su anbarını 1970-ci illərdə Ulu öndər Heydər Əliyev tikdirmişdi ki, Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda suvarma işləri aparılsın. Ancaq ermənilər suyumuzu kəsirdilər, qışda ekoloji ziyan vurmaq üçün qəsdən buraxırdılar, yaz-yay aylarında suyu kəsirdilər, biz susuz qalmışdıq. Biz, o bölgənin suvarılması ilə bağlı xüsusi tədbirlər planı hazırlamışdıq və mənim göstərişimlə orada yüzlərlə subartezian quyusu qazılmışdır. Ancaq biz, Suqovuşan qəsəbəsini azad edərkən Suqovuşan su anbarını da nəzarətimizə götürdük. Suqovuşan nəzarətimizə keçəndən sonra imkan yaranıb ki, dediyim Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızda su təminatı böyük dərəcədə yaxşılaşsın". Prezident elə həmin görüşdə o rayonlara gedən kanalların uzun illər ərzində istifadəsiz qaldığını xatırladaraq vətəndaşların su ilə qısa zaman ərzində təmin oluna bilməsi üçün işlərin görülməsini də zəruri sayıb: "Təhlil aparılmalıdır, onların vəziyyəti nə yerdədir. Təmirə ehtiyac varsa, bu işlərə də baxılmalıdır ki, biz vaxt itirmədən suyu sahə başına, vətədaşlarımızın sərəncamına gətirək" [13, s.26].

Onu da qeyd edək ki, Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi ekoloji problemləri aradan qaldırmaqla yanaşı, uzun illərdən bəri su təminatı çətin olan bu ərazilərə suyun verilməsinə, burada gələcəkdə əkinlərin davamlı aparılmasına təminat verəcək, su qıtlığının aradan qaldırılması kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə imkan yaradacaqdır.

Apardığımız araşdırmalardan məlum olur ki, 2021-ci ilin sonlarınadək ərazisi minalardan və digər partlamamış sursatlardan təmizlənmiş Suqovuşan su anbarında artıq təmir-bərpa işləri başa çatdırılmışdır. Təmir-bərpa nəticəsində ümumilikdə 96 min 200 hektar əkin sahəsinin su təminatı yaxşılaşmışdır. Bununla yanaşı, Suqovuşan hidroqovşağının və ondan su götürən uzunluğu 5,2 km olan magistral beton kanalın layihə sənədləri Fövqəladə Hallar Nazirliyi tərəfindən ekspertiza olunmuşdur. Tərtərçayın sol sahil kanallarının təmir və yenidən qurulması üçün yüksək texniki iqtisadi göstəricilər əsasında işlər aparılmışdır [7, s.41].

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın Suqovuşan su qovşağı olmasına baxmayaraq, 30 ilə yaxın işğalçının və onun yaratdığı qondarma separatçı rejimin əlində ekoloji terror silahına çevrilmişdir. Yayda Tərtərdə və ətraf rayonlarda suya böyük ehtiyac yaranan vaxt Qarabağdakı qondarma rejim oradan bir damla belə su vermir, payızda və qışda isə çoxlu miqdarda su buraxmaqla daşqınlar yaradırdı. Suqovuşanın azad edilməsi ilə bu ekoloji terror silahı düşmənin əlindən alındı. Suqovuşan, həm də Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli ərazilərdəndir.

Bunlardan əlavə, erməni işğalı Azərbaycanın Suqovuşanda yerləşən, enerji təchizatında əhəmiyyətli rol oynayan, ümumi gücü 7,8 MVt olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarından da istifadə imkanlarını əlindən almışdı. Lakin işğaldan azad edildikdən sonra həmin stansiyaların əsaslı təmirə ehtiyacının olduğu üzə çıxdı. Ərazini işğal etməklə kifayətlənməyən erməni terrorçuları Suqovuşandakı 4,8 və 3 MVt gücündə olan kiçik elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb aparmış, apara bilmədiklərini isə dağıdıb yararsız hala salmışlar. Döyüşlər zamanı stansiyalara ciddi ziyan dəydiyindən bu SES-lərin təmirinə ehtiyac yaranmışdır [13]. 2021-ci ilin yanvar ayından stansiyada təmir-bərpa işlərinə başlanmış və iyunun əvvəlindən "Suqovuşan-1" və "Suqovuşan-2" stansiyalarının istismarı reallaşmışdır. Lakin Suqovuşanın Azərbaycan iqtisadiyyatı üçün verə biləcəyi töhfə yalnız bundan ibarət deyil. Əsasən dərin yarğanlarla kəsilmiş yüksək, seyrək meşəlik, çəmənliklərdən ibarət olan qəsəbənin ərazisindən Tərtər çayının axması, qəsəbənin havası, suyu, təbiəti, bütün yerüstü sərvətləri buranı turizm baxımından olduqca cəlbedici edir. Suqovuşanın turizm məkanlarından birinə çevrilməsi Azərbaycanın gələcək strategiyasıdır [4, s.81].

Dövlətinin və xalqının maraqlarını daim uca tutan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıq Suqovuşanın turizm potensialının inkişaf etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını vermişdir. Azərbaycan televiziyasına 2021-ci ilin iyul ayında müsahibə verən dövlət başçısı Suqovuşanın turistlər üçün maraqlı olacağını söyləyərək qeyd etmişdir ki, "İkinci Qarabağ müharibəsində Suqovuşan qəsəbəsi də işğaldan azad edildi və Naftalandan Suqovuşan qəsəbəsinə məsafə o

qədər də böyük deyil. Mənim tapşırığımla yeni yolun çəkilişi də təmin edilir və beləliklə, bu zona vahid bir turizm məkanı olacaqdır. Şiddətli döyüşlər gedən əraziyə gedib baxmaq həm turistlər üçün maraqlı olar, həm də ki, Suqovuşan çox mənzərəli bir yerdir. Naftalana gələn qonaqların, – istər Azərbaycan vətəndaşları, istərsə də xarici qonaqlar olsun, – ölkəmizlə tanış olmaları üçün gərək daha geniş imkanlar olsun" [13, s.40].

Bütün yuxarıda deyilənlərə əlavə olaraq onu da qeyd etmək yerinə düşərdi ki, Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə ermənilər Suqovuşanın yalnız iqtisadi imkanlarından faydalanmağa çalışmamış, buradakı milli dəyərlərimizi əks etdirən abidələrimizi də erməniləşdirməyə cəhd etmişlər. Qeyd edək ki, Azərbaycanın ən qədim tarixə malik olan ərazilərindən olan Suqovuşan qədim Alban dövlətinin izlərini yaşadan məkanlardandır. Tərtər rayonunun Suqovuşan və Təpəkənd kəndləri arasında yerləşən tarixi-memarlıq abidəsi olan Müqəddəs Yelisey kompleksinə daxil olan ilk tikililərin inşası Qafqaz Albaniyasının Arşakilər sülaləsindən olan hökmdar III Mömin Vaçaqanın adı ilə bağlıdır. Albaniyanın qüdrətli hökmdarı Cavanşirin sifarişi ilə "Alban ölkəsinin tarixi"ni yazan tarixçi-salnaməçi Moisey Kalankatlı da əsərində bu monastır haqqında məlumat vermişdir. Azərbaycan SSR Elmlər Akademiyasının 1970-ci ildə Müqəddəs Yelisey monastırında apardığı ekspedisiyaya rəhbərlik edən arxeoloq Rəşid Göyüşov yazırdı ki, bu məbəd Albaniyada xristianlığın ilk təbliğatçısı Yeliseyin şərəfinə tikilib, alban çarı mömin Vaçaqan burada dəfn edilib. Aparılan tədqiqatlar göstərdi ki, məbəd IX-X əsrlərdə dağıdılıb. XI əsrdə burada dağıntılar üzərində yeni monastır kompleksi tikilib [3, s.46].

Erməni vandalları işğal dövründə məhz Vaçaqanın qəbrini hədəf götürməklə Müqəddəs Yelisey kompleksini də siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstəriblər. Uzun illər işğal altında olan Müqəddəs Yelisey monastırını erməniləşdirməyə cəhd göstərən düşmən bu niyyətinə nail ola bilməyib. Vətən müharibəsində işğaldan azad olunan torpaqlarımız, o cümlədən bir çox tarixi-dini tikililərimiz kimi, Azərbaycan dövləti bu monastırı da əsaslı şəkildə bərpa edilib xalqın istifadəsinə verəcəkdir. Azərbaycan tarixinin izlərini tam silməyə çalışan ermənilər Qərbi Azərbaycanda və Qarabağda təxminən 700-dən çox toponimi saxtalaşdıraraq onları süni şəkildə erməniləşdiriblər. Həmin yer adlarının 200-dən çoxu Qarabağ ərazisindədir. Erməniləşdirilmiş adların sırasında yalnız yaşayış məntəqələrinin deyil, dağ, dərə, bulaq və s. adları da var. Erməniləşdirilmiş adlardan biri də, yuxarıda qeyd etdiyimiz kimi ,"Madagiz" olmuşdur [9, s.29].

Bütövlükdə Azərbaycanın Ağdərə bölgəsinin, o cümlədən onun Suqovuşanın tarixini tədqiq edən t.ü.f.d., dos.C.Bağırzadə haqlı olaraq belə qənaətə gəlir ki, IV-XIII əsrlər dövründə Qafqaz Albaniyasının mühüm strateji əhəmiyyət kəsb edən bölgələrindən biri də Xaçınçay və Tərtərçay vadisi olmuşdur. Təsadüfi deyildir ki, bu bölgə hələ qədim zamanlardan - antik dövrdən davamlı olaraq gur və intensiv yaşayışın olduğu bir ərazidir. Bunu çoxsaylı arxeoloji abidələr də sübut edir. Qafqaz Albaniyasında xristianlığın yayılması və möhkəmlənməsindən sonra müasir Ağdərə ərazisi, bütövlükdə Tərtərçay vadisi Qafqaz Albaniyasının əsas kilsə-monastır komplekslərinin yerləşdiyi dini mərkəzlərdən birinə çevrilmişdir. Ağdərə ərazisi Qafqaz Albaniyasının mühüm tarixi ticarət-karvan yolunun keçdiyi bölgədir. Buna görə də qeyd olunanları nəzərə almaqla görürük ki, bəhs olunan ərazidə bir çox tarixi-siyasi hadisələrin baş verməsi təsadüfi xarakter daşımışdır. Tarixi-arxeoloji tədqiqatlar göstərir ki, müasir Ağdərə ərazisi Qafqaz Albaniyasının mühüm bölgəsi olduğundan Çaraberd, Hirək, Xaçın, Oğlanqala, Akana və Anapat kimi qalalar, o cümlədən Ana şəhər və Kasqankat kimi şəhərlər burada yerləşmişdir [3, s.4, 6]. Yuxarıdakı faktlardan göründüyü kimi, Suqovuşan qədim yaşayış məskəni olmaqla yanaşı, həm də möhtəşəm və qədim abidələrlə zəngindir. Bütün bunları nəzərə alaraq bölgənin turizm mərkəzinə çevrilməsi çox əhəmiyyətlidir.

Azərbaycanın silahlı qüvvələrinin gücünə inanmamaq Ermənistanın fəlakətinin əsas səbəbi oldu. Azərbaycanın dəfələrlə etdiyi xəbərdarlıqlardan nəticə çıxarmadığı üçün bu gün Ermənistan saysız-hesabsız itkilərinə görə 44 günlük müharibəni kədər, Azərbaycan isə 200 ildən sonra tarixinə yazılan qalibiyyətə görə sevinc və qürur hissi ilə xatırlayır. İkinci Qarabağ müharibəsinin ildönümü ilə əlaqədar keçirilən sorğuda iştirak edən Ermənistan vətəndaşları bu müharibədə bütöv bir gənc nəsli itirdikləri üçün hələ də kədər hissi keçirdiklərini etiraf edirlər. İkinci Qarabağ müharibəsindən nəticə çıxarmayan Ermənistanın hakimiyyət dairələrinin revanşist meyilləri bu dövlətin varlığına son qoya bilər. Lakin onlardan fərqli olaraq, Azərbaycan Prezidenti və Azərbaycan xalqı yenidən müharibə

istəmir. "Mən istəyirəm ki, bir daha müharibə olmasın. Hər halda biz müharibəyə başlamayacağıq, əgər Ermənistan tərəfdə revanşist meyillər baş qaldırmasa" deyən dövlət başçısı ermənilərə növbəti mesajını da göndərib [16]. Ermənistanın 10 noyabr bəyanatının şərtlərini kobudcasına pozduğunu xatırladan Ali Baş Komandan bunu da nəzərə çatdırıb ki, biz hələlik səbirli, təmkinli davranırıq: "Amma bizim səbrimizin də həddi var və İkinci Qarabağ savaşı göstərdi ki, səbrimiz tükənəndə nələr baş verir. Ona görə Ermənistan rəhbərliyinə şans veririk ki, noyabrın 10-da imzalanmış bəyanatın bütün müddəalarını yerinə yetirsin və özünü məsuliyyətlə aparsın" [17]. Müharibədən sonra Ermənistan tərəfdə yenidən revanşist qüvvələrin baş qaldırması bir daha təsdiqləyir ki, ermənilər, özlərinin də etiraf etdiyi kimi, hələ bu müharibədən nəticə çıxarmayıblar. Belə görünür ki, Ermənistanın ali hakimiyyət orqanları 1 il əvvəl Azərbaycanın onların başına vurduğu "dəmir yumruğ"un gücünü unudur, yenidən müharibə istəyir. Ancaq kimin qalib gələcəyi indidən bəlli olan bu müharibə hələ də matəm içində olan Ermənistana lazımdırmı? Bu barədə dərindən düşünməyə dəyər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 oktyabr 2023-cü ildə Suqovuşan qəsəbəsində istirahət parkının açılışında iştirak edib və Suqovuşan Su Anbarının yenidən fəaliyyətə salınmasında iştirak etmişdir. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev istirahət parkında görülən işlər barədə dövlətimizin başçısına məlumat vermişlər. Bildirilmişdir ki, 1970-ci illərdə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarının ətrafında yaradılan parkda əhalinin asudə vaxtının səmərəli təşkili üçün sahilboyu gəzinti cığırları salınmış, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılmışdır. Ərazisi 7,5 hektar olan parkda, həmçinin turist informasiya mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq yaradılmışdır. Burada geniş yaşıllaşdırma işləri görülmüş, 5 minə yaxın ağac və kol əkilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Suqovuşan istirahət parkının təməli 2022-ci il martın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulmuşdur. Həmçinin Suqovuşanda turizm infrastrukturunun yaradılması prosesinin ikinci mərhələsində yeni körpünün inşası, tarixi körpünün və ərazidəki məbədin, eləcə də məbədin ətrafındakı tarixi tikililərin konservasiyası, mövcud Bayraq meydanının parka adaptasiyası həyata keçiriləcək, genişmiqyaslı abadlıq işləri görüləcəkdir.

1898-ci ildə inşa edilmiş məbəd Qarabağ zonasında ənənəvi alban dini memarlıq məktəbinin elementlərini özündə ehtiva edir. O, yerli əhəmiyyətli abidə kimi dövlət tərəfindən mühafizə olunur. Həmçinin yuxarıda qeyd etdiyimiz kimi, Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazi tarixən Qafqaz Albaniyasının tərkibinə daxil olmuş, onun sosial-mədəni və hərbi-siyasi tarixində önəmli yer tutmuşdur. Bu baxımdan, qəsəbənin yaxınlığında yerləşən müqəddəs Yelisey monastırının Qafqaz Albaniyasının hökmdarı III Mömin Vaçaqanın adı ilə bağlı olması təsadüfi deyildir [19].

Belə geniş ərazidə təməl qoyma mərasimindən ötən qısa müddət ərzində göz oxşayan istirahət parkının yaradılması olduqca füsunkar, bənzərsiz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsinin tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcəyini sübut edir. Qeyd edək ki, Suqovuşan Su Anbarı və magistral kanallar 1976-cı ildə istismara verilib. Su anbarının ümumi su tutumu 5,86 milyon kubmetrdir. Bəndin üstündə uzunluğu 630 metr, hündürlüyü 28 metr, eni isə 10 metrdir. Tərtərçay və Turağayçay çaylarından daxil olan sular su anbarında tənzimlənərək, ümumi suburaxma qabiliyyəti saniyədə 70 kubmetr sonra isə hər birinin suburaxma qabiliyyəti saniyədə 50 və 20 kubmetr olan sağ sahil və sol sahil magistral kanallarına verilir. Su anbarında yeni inzibati bina və göstərici binası, təmir emalatxanası və nasosxana tikilmişdir. Bütün bunlarla yanaşı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 oktyabr 2023-cü ildə Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır [19].

***Nəticə.*** Azərbaycan xalqının sevimlisi, Qarabağın xilaskarı, müdrik Ali Baş Komandan İlham Əliyev Suqovuşanın işğaldan azad edilməsinin birinci ildönümü münasibətilə çıxışında demişdir: "Bu gün Suqovuşanda və Talış kəndində olarkən bir daha xalqımızın, Silahlı Qüvvələrimizin qəhrəmanlığını görürəm. Buraya gələn hər kəs bunu görür və görəcək. Cünki bu yerləri işğaldan azad etmək, ölümə getmək – bütün bunlar xalqımızın böyüklüyünü göstərir. Bu gün hər iki kənddə dövlət bayrağını ucaldaraq şəhidlərimizin əziz xatirəsinə bir daha ehtiramımı bildirirəm. Azərbaycan xal-

qına da təşəkkürümü bildirirəm ki, müharibə dövründə bir yumruq kimi birləşib orduya dayaq oldu, mənə arxa oldu və biz bunun hesabına düşmənin başını əzdik, Qələbə çaldıq. Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" [18].

ƏDƏBİYYAT


1. Azərbaycan qəzeti. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cocuq-Mərcanlıya səfəri zamanı çıxışı. 14 iyun 2017-ci il.
2. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Suqovuşana səfəri / Azərbaycan. -2021, 4 oktyabr.
3. Bağırzadə, C.V. Ağdərə IV-XIII əsrlərdə (Tarixi arxeoloji tədqiqat). – Bakı: Elm və Təhsil", - 2014. - 124 s.
4. Hüseynov, C.Ə. Qarabağ Azərbaycandır. Yeni Qarabağnamə. – Bakı: Təhsil, - 2021. - 246 s.
5. Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011). - Bakı: Letter-press, - 2012. - 910 s.
6. İmanov, C. Qırx dörd günlük zəfər tarixi. - Bakı: Zəka, - 2021. - 191 s.
7. Əlibalayeva, G. Müharibə acılarının zəfər sevinci. – Bakı: Şərq-Qərb, - 2021. - 91 s.
8. Qırx dörd günlük zəfərin davamı. - Bakı, Avropa, - 2021. - 216 s.
9. Məmmədov, N.R. Azərbaycanın Ağdərə rayonunun tarixi. – Bakı: Avropa, - 2014. - 502 s.
10. Məmmədov, N.R. İkinci Qarabağ müharibəsi: Zəfər salnaməsi. - Bakı: Optimist, -2020. - 464 s.
11. Məmmədov, N.R. Qarabağ tarixi (1920-1991). – Bakı: Təhsil, - 2020, - 980 s.
12. Səlimbəyli, Ş. Azərbaycan tarixinin Zəfər salnaməsi. - Bakı: Avropa. – 2020. - 290 s.
13. Şükürov, K.K., Həbibbəyli İ.Ə. Zəfər yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək. - Bakı: Elm, - 2021. - 904 s.
14. Vətən müharibəsinin 44 günlük zəfər salnaməsi. – Bakı: Elm, - 2021. - 112 s.
15. Zəfər tarixi. - Bakı: Şərq-Qərb, - 2021. - 108 s.
16. Zəfər yolu. - Bakı: Qanun, - 2020. - 156 s.
17. https:/president.az/articles/48264 [14.05.2024].
18. https:/president.az/articles/52122 [14.05.2024].
19. https:/president.az/articles/45924 [14.05.2024].
20. Suqovuşanda istirahət parkının açılışı // "Xalq qəzeti", №226(30342), 17 oktyabr 2023-cü il, s.2.
21. Böyük qayıdış. I kitab. – Bakı: Şərq-Qərb, - 2021. - 332 s.



**НАЗИМ МАМЕДОВ**

*Старший научный сотрудник отдела «История Карабахских войн и движения Великого Возвращения» Института истории имени А.А. Бакиханова Национальной Академии Наук Азербайджана, доктор исторических наук, доцент*


## ОСВОБОЖДЕНИЕ ОТ ОККУПАЦИИ И ИСТОРИЧЕСКОЕ ЗНАЧЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО ПОСЁЛКА СУГОВУШАН


В статье говорится о победе под руководством Победоносного Главнокомандующего Ильхама Алиева добилась и единства армии и исхода непоколебимой волей нашей доблестной армии – народа и большой моральной поддержкой братской Турции в 44 дневной 2-ой Карабахской войне, в том числе об освобождении посёлка Суговушан от оккупации и его историческом значении.



*Ключевые слова:* Азербайджан, армянский вандализм, Верховный Главнокомандующий Илхам Алиев, Суковущан, Гарабаг, Туркейции, историческое значение.

**NAZIM MAMEDOV**
*Senior researcher at the Department of "History of the Karabakh Wars and the Great Return Movement" of the Institute of History named after A.A. Bakikhanov National Academy of Sciences of Azerbaijan, Doctor of Historical Sciences, Associate Professor*

## LIBERATION OF SUGOVUSHAN SETTLEMENT OF AZERBAIJAN FROM OCCUPATION AND HISTORICAL SIGNIFICANCE

The article deals with the victory won under the leadership of the Victorious Commander-in-Chief Ilham Aliyev in the 44-day 2nd Garabagh war, along with the unshakable will and unity of our glorious army – our people and the great moral support of fraternal Turkey, as well as the liberation of the village of Sugovushan from occupation and its historical significance.

*Keywords:* Azerbaijan, Armenian vandalism, of Supreme Commander – in Chet Ilham Aliyev, Sugovushan, Garabagh, Turkey, historical signiticance.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 may 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.e.d. Şahin Fərzəliyev, t.ü.f.d. Məmmədağa Baxışov.*